*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 54-62* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.54*

# "Azərbaycan" jurnalı: milli-ədəbi təfəkkürün miqyası

**Südabə Ağabalayeva**
Bakı Slavyan Universiteti
E-mail: sudabe334@mail.ru

**Annotasiya.** Azərbaycanda ədəbiyyatın inkişaf dinamikasını izləməyə imkan verən profil media nümunələri, əsasən, XX əsrin əvvəllərindən yaranmağa başlayıb. Doğrudur, XIX əsrin sonlarından başlayaraq, bir sıra mətbuat orqanları müəyyən ədəbi-bədii nümunələr dərc etməklə, Şərq və Qərb ədəbiyyatlarından tərcümələrə yer verməklə maarifçi ədəbiyyatın inkişafına ciddi təsir göstərib. XX əsrin əvvəllərində nəşrə başlamış "Molla Nəsrəddin", "Füyuzat" jurnallarının yaradıcıları da həmin nəşrlərdə publisistik yazıları, bədii yaradıcılıq nümunələri, eləcə də tərcüməçilik fəaliyyətləri ilə çıxış etməklə, gələcəkdə ədəbiyyatın inkişafı ilə daha ardıcıl, davamlı məşğul olacaq jurnal yaratmaq düşüncəsini formalaşdırıblar. Unutmaq olmaz ki, bu düşüncəni diqtə edən əsas faktor ictimai-siyasi-mədəni mühitdir.
Ədəbi-bədii irsin dəyər səviyyəsini təqdim edən nümunələrin sırasında "Azərbaycan" jurnalının tarixi, inkişaf mərhələləri izlənilir. Jurnalın cari ədəbi prosesdəki yeri, funksionallığı, yaradıcılıq istiqamətləri araşdırılır. Onun fərqli – ictimai münasibətlər sistemində, ideoloji ştamp basqısı altında məruz qaldığı ad və linqvistik dəyişkənliklər şəraitində ədəbi siyasətinin başlıca meyarları təhlil olunur, bu siyasətin başlıca amilləri müqayisə metodu ilə ümumiləşdirilir. Jurnal mətnləri bir sistem olmadığından, fərqli metodoloji, elmi-nəzəri əsaslara istinad olunur. Jurnalın bütövlükdə etnik-mədəni dəyərlər sistemi kimi nəzərdən keçirilməsi ümumi sistemlər nəzəriyyəsinin müəyyən prinsiplərinə müraciəti labüd edir.
**Açar sözlər**: mətbuat, ədəbiyyat, mədəniyyət, jurnal, "Azərbaycan", senzura, redaktor

**Məqalə tarixçəsi:** göndərilib – 05.06.2024; qəbul edilib – 20.06.2024

# The magazine "Azerbaijan": scale of national-literary thought

**Sudabe Agabalayeva**
Baku Slavic University
E-mail: sudabe334@mail.ru

**Abstract.** Profile media examples that allow us to follow the dynamics of the development of literature in Azerbaijan appeared mainly from the beginning of the 20th century. Some literary and artistic examples were published and the translations from Eastern and Western literature were made by some press agencies from the end of the 19th century and this had a serious impact on the development of educational literature.
The creators of the magazines "Molla Nasraddin" and "Fuyuzat" published at the beginning of the 20th century presented their publicistic articles, examples of artistic creativity and translation activities in these publications and with that they formed the idea of creating a magazine that would

cover the development of literature more continuously in the future. It should not be forgotten that the main factor determining this idea is the socio-political-cultural environment.
The history and development stages of the "Azerbaijan" magazine are followed among the examples that reveal the level of value of the literary and artistic heritage. The place in the current literary process, functionality and creative aspects of the magazine is studied. Main criteria of literary policy is analyzed in a different system of social relations, in the conditions of name and language changes that are subject to ideological stamp pressure, and the main factors of this policy are summarized by comparison method. Since journal texts are not a system, in the journal is referred to different methodological, scientific-theoretical foundations. Review of the journal as an ethno-cultural value system necessitates appeal to certain principles of general systems theory.
**Keywords**: press, literature, culture, magazine, "Azerbaijan", censorship, editor

**Article history:** received – 05.06.2024; accepted − 20.06.2024

## Giriş / *Introduction*

Ən müxtəlif cəmiyyət modellərinin ədəbi təcrübəsi göstərir ki, ədəbiyyat ədəbi jurnallar ətrafında formalaşır. Tarixən, xüsusilə hər cür texnoloji yeniliklərin sürəti və gözlənilməzlikləri fonunda, yazılı mətnlər etibarlılıq, inam aşılamaqla yanaşı, yarandığı dövrün, zamanın enerji ötürücülüyü keyfiyyətlərini qoruyur və illər keçdikcə, bütöv bir publisistika nümunəsinə çevrilir, mədəniyyət yaratmanın və mədəniyyət qorumanın tərkib hissəsi olur. XX əsrin əvvəllərində bədii düşüncənin və ictimai fikrin inkişafına təkan verib, Azərbaycan ədəbiyyatını keyfiyyətcə yeni mərhələyə keçidini təmin edən nəşrlərin yaranmasına, bir növ, zəmin yaratmış qəzet və jurnallar sırasında, xüsusilə Azərbaycan milli mətbuatının, eləcə də Rusiya müsəlmanlarının tarixində demokratik, mütərəqqi mətbuatın ilk nümunəsi kimi qiymətləndirilən "Əkinçi" (1875-1877) qəzetindən başlayaraq, "Ziya", "Ziyayi-Qafqaziyyə", "Şərqi- Rus" və s. mətbu orqanlar, xüsusilə, "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının nəşri həm də bədii düşüncəni yeni bir mərhələyə yönəldib. Hər iki jurnalın ətrafında toplaşan və burada əsərlərini dərc etdirən yazıçılar ədəbi prosesi zənginləşdirib. Tənqidi realizm və romantizm ədəbi cərəyanının ən böyük nümayəndələrinin bu jurnallar ətrafında cəmləşməsi, yaxud burada əsərlərinin dərc edilməsi yeni ədəbi-bədii estetik kriteriyaların yaranmasına və inkişafına təkan verib. Uzun müddət sovet ədəbiyyatşünaslığı bu iki jurnal arasında ziddiyyətli məqamları kəskin münaqişə və fikir ayrılığı səviyyəsində qabardıb. *"Bəzi müəlliflər "Füyuzat"çılara səmimi rəğbət bəsləyərək, "Molla Nəsrəddin" xəttini də danmayaraq, çox subyektiv nəticələr çıxarırlar. "Molla Nəsrəddin"in və "Füyuzat"ın arasında heç bir fərq olmadığını sübut etməyə cəhd göstərirlər. Bu isə yanlış qənaətdir. Mirzə Cəlillə Əlibəyin arasında şəxsi nəzakətli münasibətləri nəzərə almaqla, deyə bilərik ki, "Füyuzat"ın, "Molla Nəsrəddin"in ictimai-ədəbi yönləri və linqvistik prinsipləri kəskin fərqlidir. Bu polemik münasibət ilk növbədə dillə bağlıdır. Bu gün biz jurnalların bütün sayları ilə tanış ola bilərik, – şükür ki, "Molla Nəsrəddin"in latın qrafikasıyla cildləri çıxmışdır, rəhmətlik Ofelya Bayramovanın zəhməti sayəsində "Füyuzat"ın da bütöv komplekti nəşr edilmişdir. "Molla Nəsrəddin" yazılarında hər şeyi asan, əngəlsiz anlayırıq. Di gəl, ərəb-fars lüğəti olmadan Ə.Hüseynzadənin dərin fəlsəfi mətnlərindən baş aç"* [2, s.3-8].

## Əsas hissə / *Main part*

Ədəbi mətbuatın milli, klassik nümunəsi olan "Azərbaycan" jurnalı milli və düşüncənin tarixi, zamanın bədii-estetik dərki baxımından öz sələflərinin böyük məramını sadəcə davam etdirməyib,

bütün miqyası, ideya-estetik fundamentallığı, milli ictimai təfəkkürə əhəmiyyətli təsiri ilə Azərbaycan ədəbi-bədii düşüncəsinin sərhədlərini genişləndirməkdə davam edir; ənənə və müasirliyin üzvi sintezində, humanitar mədəniyyətin zənginləşməsində. Ədəbi ənənələr, eksperimentlər və davamlı yenilənmələrin qarşılıqlı rəqabəti şəraitində jurnalın yeri, əhəmiyyəti təkcə onun tarixinin kifayət qədər zəngin olması ilə şərtlənmir. XX əsr Azərbaycan ədəbiyyatının və ədəbi nəsillərinin, ədəbi düşüncəsinin birəsrlik yolu "Azərbaycan" jurnalı ilə bağlıdır. Şərqdə ilk ən qalın və davamlı dövriliyi olan bu mətbu nəşr Azərbaycanın ədəbi-bədii, estetik fikrinin, mədəniyyət tarixinin salnaməsi kimi qəbul olunur.

Jurnalın nəşrini XX yüzilin iyirminci illərində, yaranmaqda olan yeni ictimai münasibətlər sistemində yeni ədəbiyyatın xüsusi ədəbi orqana ehtiyacı aktuallaşdırmışdı. "Azərbaycan" jurnalı yazıçıları bir jurnal ətrafında toplamaq və onları müasir quruculuq işlərinə sövq etmək üçün yaradılmamışdı. Jurnal bu funksiyanı çox sonralar icra etməyə və həyata keçirməyə başladı. "Maarif və mədəniyyət" adı ilə dərc edilən (1923) jurnalın ilk funksiyası da maarifçiliyi artırmaq və mədəniyyət sahəsində olan yenilikləri əks etdirmək məqsədi daşıyırdı. Əsasnaməsi təsdiq edilərkən jurnalda maarif, məktəb, pedaqoji məsələləri işıqlandırmaq məqsədilə "Təlim və tərbiyə" şöbəsi də yaradılmışdı, sonralar bu şöbənin adı dəyişdirilərək "İctimai və siyasi şöbə" adlandırılmışdı və məsləhət görülmüş xüsusi şöbənin funksiyasını daşıyırdı. Bununla belə, jurnal ilk nömrəsindən ədəbi-bədii nəşr kimi fəaliyyət göstərmişdir.

Jurnalın məqsəd və vəzifələri həmin dövrdə maarif komissarı olmuş Mustafa Quliyevin "Maarif və mədəniyyət" sərlövhəli baş məqaləsində və "Bir-iki söz" adlı redaksiya məqaləsində şərh edilmişdi. Azərbaycanda maarifi inkişaf etdirməyi, dilimizin saflığını qorumağı qarşısına məqsəd qoyan jurnal bu işdə ədəbi qüvvələrə bel bağlayırdı: *"Ümid ediriz ki, bu məcmuə ümumazərbaycan ədib və mühərrirlərinin fikri ittihadla, ədəbiyyatımızın tədqiq və intişasına yardım edəcəkdir. Bu barədə Azərbaycan maarifi yolunda hər bir qələm əhlinin bizə yardım etməsi onların borcudur"* [8, s.3].

Jurnalda üslubların, istiqamətlərin, tərz və meyillərin rəngarəngliyinin gözlənilməsi nəşrin heç də siyasi ideologiyanın tribunası kimi düşünülmədiyini deməyə əsas verir. Bu, əslində, bir qədər sonra görünəcəkdi və həmin dövrü şərti olaraq, cəmiyyəti qanunların yox, qərarların idarə etməsi dövrü kimi xarakterizə etmək daha düzgün olardı. Jurnal Ümumittifaq abunə kataloquna daxil edilməklə, Sovet İttifaqında yaşayan türkdilli xalqlar, Gürcüstan, Tatarıstan, Türkmənistan və digər respublikalarda geniş yayılırdı.

Nəşrə başlaması ilə həm də ən müxtəlif təmayüllərə, nəsillərə və ictimai görüşlərə mənsub ziyalıları bir araya gətirməklə, 20-ci illərin sonunda yazıçıların təşkilatlanmasında, bir cəmiyyət kimi toplaşmasında jurnalın müstəsna xidməti olmuşdur. Bu, yeganə hadisədir ki, ədəbi orqan təşkilatın yaranmasında özək olmuşdur; adətən, profil media müəyyən formalaşmış, oturuşmuş qurumun orqanı kimi fəaliyyətə başlayır. "Maarif və mədəniyyət" jurnalının fəaliyyəti, populyarlığı onun ətrafında yazıçıların təşkilatlanmasına zəmin olmuşdur. Azərbaycanda bolşevik inqilabının qələbəsindən sonra hakimiyyətin ideoloji idarəetmənin rıçaqlarından biri kimi nəzərdə tutduğu ədəbi cəmiyyətlər 30-cu illərədək gözlənilən nəticəni vermədi. Yeni istiqamətli ədəbiyyatın yaradılması, yeni quruluşu qəbul və təbliğ edən yazıçıların təşkilatlanması məqsədini güdən sovet yazıçılarının Moskvada keçirilmiş I Ümumittifaq qurultayında Azərbaycan yazıçıları – Cəfər Cabbarlı, Məmməd Kazım Ələkbərli, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Səməd Vurğun, Salman Mümtaz, Qafur Qantemir, Mehdi Hüseyn, Yusif Şirvan, Əli Nazim və b. artıq çoxdan jurnal ətrafında birləşmişdilər. İdeologiyaya münasibətdə fərqli mövqedə duran ədəbi nəsillər jurnalda eyni dərəcədə dərc olunurdular. Belə demək mümkünsə, "köhnələr": Abdulla Şaiq, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Salman Mümtaz, Bəkir Çobanzadə və digər ziyalılar jurnalın ədəbiyyat siyasətinin müəyyən edilməsində yeni ədəbi qüvvələrlə birgə iştirak edirdilər. Əslində, ideoloji təyinatından asılı olmayaraq, eyni məqsəd güdən

müxtəlif məzmunlu kampaniyalarla ədəbiyyata, incəsənətə edilən mənəvi terror şəraitində ədəbi qüvvələr bədii yaradıcılıq nümunələri, eləcə də nəzəri görüşlərində mümkün qədər milli-mənəvi dəyərlərə, folklora, klassik irsə, onun tədqiqinə, ədəbiyyatın nəzəri məsələlərinə, tərcümə vasitəsilə ədəbi-bədii fikrin inteqrasiyasına diqqət ayırırdılar. Yeni quruluşun təbliği ilə bağlı ümumideoloji məsələlərə yer ayırsa da, yeni yaranan şeir, hekayə, roman və publisistikanı geniş oxucu auditoriyasına çatdırsa da, əslində, jurnal alt qatda axına qarşı üzərək, milli ruhun, milli dilin, milli mənəviyyatın keşiyini çəkib.

Ədəbi-bədii jurnala yalnız inikas vasitəsi kimi yanaşılması onun funksionallığını məhdud təqdim edir. O, hər şeydən əvvəl, ədəbi-bədii mövqeyi və platforması ilə dövrün, zamanın şəraitinə tabedir. İctimai-siyasi rejimlərin və ideya-siyasi konsepsiyaların müxtəlifliyinə baxmayaraq, hər bir tarixi mərhələdə nəşrin ümumi səciyyəsini belə ifadə etmək olar: milli mənlik şüurunun qorunması, vətəndaşlıq, elmilik, vəziyyət və şəraitin imkanlarını hər vasitə ilə daha düzgün dəyərləndirməklə, obyektivlik keyfiyyətlərini saxlamağa çalışmaq və bunu yaradıcı peşəkarlığın meyarı hesab etmək.

Jurnalın tarixi və fəaliyyəti ilə bağlı aşağıdakı istiqamətləri belə ümumiləşdirmək mümkündür: hər şeydən əvvəl, sabit büdcə imkanları çərçivəsində müəyyən poliqrafik sabitlik səviyyəsinə nail olunması; jurnal bütün illər ərzində yalnız bir nəşriyyat-poliqrafiya müəssisəsi ilə əməkdaşlıq etmişdir.

Jurnalda Nəsr, Poeziya, Publisistika, Dramaturgiya, Tənqid və Ədəbiyyatşünaslıq, biblioqrafik xarakterli Kitab Rəfi daimi rubrikaları ilə yanaşı, ilin sonuncu nömrəsində cari ildə "Azərbaycan" jurnalında dərc olunmuş materialların adlı siyahısı rubrikalar üzrə sistemləşdirilmiş şəkildə təqdim olunur.

Şifahi xalq ədəbiyyatı, folklor, xüsusilə onun peşəkar yaradıcılıq hadisəsi olan aşıq yaradıcılığı nümunələri, xarici ölkə xalqları, o cümlədən postsovet ölkələri xalqlarının ədəbiyyatından bəhs edən bədii əsərlər, ədəbi-tənqidi materiallar təqdim olunur. İncəsənət, mədəniyyət, mətbuat, dilçilik, tarix, fəlsəfə, hüquq və digər elm sahələrini əhatə edən ümumi xarakterli materiallar da jurnalın zəngin mündəricəsini izləməyə imkan verir, şifahi və yazılı qaynaqlarla əlaqələri, milli ədəbi təfəkkürün qatları arasında rabitəni qorumağa çalışır.

Jurnalın tərcümə ədəbiyyatına xüsusi diqqəti bu gün – ölkədə tərcümə mərkəzlərinin və nəşrlərinin olduğu bir vaxtda da davam edir. Bu, "Azərbaycan" jurnalının uzun illər tərcümə sahəsini diqqətdə saxlaması, çoxillik təcrübəyə malik, tərcümə siyasətini yönləndirən bir nəşr faktı olması ilə bağlıdır. Sovet dövründə tərcümə əsasən rus dili vasitəsilə həyata keçirilsə də, son 30 ildə orijinaldan tərcüməyə üstünlük verilir. Rubrikaların ildən-ilə zənginləşməsi ədəbi prosesi yönləndirən nəşrin ədəbi siyasətinin bir istiqamətidir. 2015-ci ildə jurnalın tarixində ilk dəfə olaraq, roman – jurnal nömrəsi (yazıçı Elçinin tarixi-psixoloji janrın hüdudlarda yazdığı "Baş" romanını çap etdi. 1926-cı ildə "Maarif və mədəniyyət" jurnalında verilmiş "Ədəbi parçalar" əlavəsindən sonra bu, Azərbaycan ədəbi mətbuatında ilk faktdır. Jurnalın xüsusi buraxılış ənənəsi "Dramaturgiya" və "Uşaq ədəbiyyatı üzrə, ildə bir dəfə olmaqla, formalaşmışdır. Peşəkar yazıçıların dərc olunduğu jurnal siyasətində həm də Ədəbi Gənclik rubrikası ilə "Ən yaxşı əsər "Azərbaycan"da" ənənəsini davam etdirir. Ölkədə ayrı-ayrı qurumların təşkil etdiyi ciddi ədəbi müsabiqələrin yekun materiallarının jurnalda dərc olunması ənənəsi də müasir ədəbi prosesin qeyri-standart situasiyalarında norma yaradılması funksiyası ilə nəşrin flaqman olmasının göstəricilərindəndir. Azərbaycan siyasi müstəqilliyinin bərpası dövrünədək respublikanın nəşriyyatları "Azərbaycan" jurnalında dərc olunmamış heç bir bədii əsəri plana salmırdı, yəni əsərin, müəllifin ədəbi mühitdə təsdiqi olmadan heç bir nəşrdən söhbət belə gedə bilməzdi. 2000-ci illərin əvvəllərindən başlayaraq, bu proses qeyri-rəsmi şəkildə yenidən dövriyyədədir: bu dəfə təşəbbüs yazıçılardan qaynaqlanır; kitab nəşrindən əvvəl əsərlərinin "Azərbaycan" jurnalında dərc olunmasını daha vacib sayırlar və buna görə dərc olunmaq "növbəsində gözləməyi" üstün tuturlar.

**Jurnalın inkişaf mərhələləri dövrün ədəbi – estetik dərki müstəvisində.**

Nəşrin müxtəlif dövrlərdəkı tədqiqatının nəticələri onu deməyə əsas verir ki, bədii ədəbiyyat nəşrinin spesifik sahəsinə – profil media nümunəsinə çevrilməsi, eləcə də, bədii publisistikanın formalaşdırılması, ədəbi prosesin katalizatoru və barometri olmaqla, jurnal ədəbi – bədii düşüncənin cəmiyyət həyatına təsirində prinsipial mövqeyə malik olmuşdur.

On ildən çox olmayan ilk illərdə jurnalın, belə demək mümkünsə, inteqrativ funksiyası diqqəti cəlb edir. Birləşdirmək, həmrəylik mənasında bu funksiya siyasi-ideoloji platformanın möhkəmləndirilməsi naminə dini, sosial-psixoloji müxtəlifliyin bir məqsəd yoluna gətirilməsi, yeni quruluşun mahiyyəti ilə bağlı fərqli düşüncəli ədəbi qüvvələrlə əməkdaşlıq yeni vahid mədəni-mənəvi məkanın formalaşdırılması üçün uyğun idi. Düşünülmüş siyasətin məntiqi baxımından inteqrativ funksiyanı "Maarif və mədəniyyət" jurnalının sosial-pedaqoji funksiyası XX əsrin iyirminci illərinin sonuna doğru üstələyərək, inzibati təsir sisteminin rıçaqlarından birinə çevrildi. Bu, yalnız bir ədəbi jurnal səciyyəsi olmayıb, siyasi, mənəvi-əxlaqi dəyərlərin məcmusunu müəyyən sosialist düşüncəsinin və həyat tərzinin təbliğinə cəlb olunan bütün ideoloji alətlərin hakim qüvvənin, rejimin xarakterinə uyğunlaşdırılması idi. Bu da başadüşüləndir; hətta bu gün də, ən demokratik ölkədə belə, humanitar mədəniyyət rəsmi siyasətə dəstək olur. Burada əsas məsələ maarifləndirmədir və jurnalın adında təsbit olunan bu funksiya onun fəaliyyətində həmişə aparıcı olmuşdur. Bir qədər bu ifadənin mahiyyətinə varmaqla qeyd etmək lazımdır ki, sənət, mədəniyyət nümayəndələri göstərişlə dövriyyəyə buraxılan ideyaları əksər halda öz mövqeyi kimi dərk edir, onun təbliğ və təşviqinə qoşulur. Lakin cəmiyyətin həyatında elə ciddi və mürəkkəb məqamlar olur ki, bu zaman "yuxarıların" və "aşağıların" mövqeyi nəinki üst-üstə düşür, hətta təbliğat siyasətin önünə keçir. Kommunikativ əlaqələrin istiqamətlənməsində isə, mənəvi məsuliyyətin dərk olunmasının zəruriliyi unudulmamalıdır.

"Azərbaycan" jurnalının inkişaf tarixinin növbəti – ikinci mərhələsi repressiya siyasətinin, II Dünya müharibəsinin nəticələrinin, dünyanın siyasi-ideoloji mənzərəsində sosializm düşərgəsinin möhkəmlənməsi, eləcə də, şəxsiyyətə pərəstiş dövrünün mülayimləşmə ilə əvəz olunması dövrü ilə səciyyələnir. Jurnala rəhbərlik etmiş beş redaktorun repressiya olunaraq güllələnməsi, siyasi baxışlarına görə sürgün edilməsi, bundan başqa, jurnalın bir çox müəlliflərinin də antisovet, millətçi fəaliyyətdə təqsirli bilinərək eyni tale yaşaması faktları kommunist rejiminin mahiyyətini ifadə edir. Ən ağrılısı da, 50-ci illərin ortalarında onlara bəraət verilərək günahsız olduqlarının rəsmən təsdiq olunması idi.

XX əsrin 60-cı illərində siyasi mülayimləşmənin təsiri özünü göstərdikcə, humanitar düşüncədə, incəsənətdə, ədəbiyyatda mənəvi dəyərlərin yenidən qiymətləndirilməsi başlasa da, ənənəvi sosiomədəni məkan dominantlığını qoruyurdu. Azərbaycan ədəbiyyatı tarixində 60-cılar adlandırılacaq ədəbi nəsil məhz "Azərbaycan" jurnalının timsalında özünüifadə ünvanı tapdı. Bu nəslin istedadlı nümayəndələri – poeziyada Əli Kərim (o, həm də jurnalın poeziya şöbəsinin müdiri idi), Vaqif Səmədoğlu, Ramiz Rövşən, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Vaqif Cəbrayılzadə, Fikrət Qoca və s. kimi gənclərə, nəsrdə Yusif Səmədoğlu, Maksud İbrahimbəyov, Elçin, Anar, İsi Məlikzadə və başqa imzalara cəsarətlə meydan verməklə, jurnal, əslində, yeni kulturoloji əsasları aktuallaşdırırdı. Əlbəttə, bu nəsil siyasi rejimə qarşı mübarizə aparmırdı, hakimiyyətə müxaliflik iddiasında deyildi, amma hakim ədəbi iqtidarın – sosrealizmin prinsiplərinin çərçivələrindən kənara çıxmaqla, yaradıcı ədəbi azadlığı dəstəkləyirdi. Mənəvi dirçəlişə stimul verən bədii düşüncəni milli özünüdərk platformasına istiqamətləndirən yeganə ədəbi tribuna "Azərbaycan" jurnalı idi.

Jurnalın XX əsr bədii publisistikasının, Azərbaycan romanının və modern poeziyanın formalaşmasında müstəsna xidmətlərini qeyd etmək lazımdır. Azərbaycan ədəbi-bədii publisistikasının ictimai maraq dairəsində olması ilə yanaşı, unutmaq olmaz ki, bu, heç də Qərb publisistikası ənənələrinə yox, tarixən senzura şəraitində fəaliyyət göstərmiş Rusiya publisistikasına daha yaxın olmuşdur və elə bu mənada da eyni tale yaşamışdır. İctimai-siyasi rejimlərin və ideya-siyasi

konsepsiyaların müxtəlifliyinə baxmayaraq, hər bir tarixi mərhələdə jurnalın publisistika siyasətinin ümumi səciyyəsini belə ifadə etmək olar: milli mənlik şüurunun qorunması, vətəndaşlıq, elmilik və şəraitin imkan verdiyi qədər obyektivlik keyfiyyətlərini saxlamağa çalışmaq, həm də bunu yaradıcı peşəkarlığın meyarı hesab etmək. Əlbəttə, sovet ideologiyasına və sosializm ideallarına xidmət edən bu publisistikanın klassik ənənələrdən tam uzaq düşdüyünə hökm vermək düzgün olmaz. İstər bədii, istər elmi, siyasi, bütövlükdə ən müxtəlif baxışları, zövqləri, prinsipləri əks etdirən publisistika təkcə demokratiyanın göstəricisi deyil, o həm də fərdin yaradıcı təfəkkürünü cəmiyyətin inkişafına, ictimai şüura təkan verən amillər sırasına çıxarır. Bu yöndən yanaşıldıqda, bədii publisistika yazıçının vətəndaş mövqeyini qabardır. *"Cəmiyyətin, ictimai münasibətlərin elə mərhələləri olur ki, ziyalının sözü aparıcı mövqeyə keçir, publisistika – ictimai-siyasi həyat məsələlərini araşdıran ədəbiyyat növü bədii yaradıcılıq anlayışından qabaqda durur. İnqilablar, müharibələr, azadlıq mübarizəsi dövründə, keçid mərhələsi yaşayan cəmiyyətdə yaradıcı insanın, cəmiyyətin ən müxtəlif təbəqələri tərəfindən istedadı və nüfuzu təsdiq və qəbul olunmuş ziyalının sözünün, fikrinin, mövqeyinin əksəriyyətin rəyi, mövqeyi kimi qəbul edilməsi, ictimai fikirdə lokomotiv kimi düşünülməsi buradan qaynaqlanır"* [1].

"Azərbaycan" jurnalı 80-ci illərin ortalarında SSRİ-də dövriyyəyə salınmış perestroyka siyasətinin verdiyi imkanlardan yararlanmağa, cəmiyyəti maraqlandıran mövzulara, problemlərə diqqət yönəltməyə, müstəqil düşüncəyə yol açırdı. Əslində, 60-70-ci illərdə həyata, gerçəkliyə yeni təfəkkür tərzi ilə baxan, hakim ideologiyaya heç də rəğbət bəsləməyən düşüncə sahiblərinə, ədəbi qüvvələrə tribuna olan jurnal daha çox söz, ifadə azadlığı, müstəqil düşüncə meyillərinə meydan verirdi. Milli-mədəni-mənəvi təkamüldə mühüm rolu olmaqla yanaşı, 80-ci illərin sonunda da, XX əsrin əvvəllərində olduğu kimi, Azərbaycan yazıçı publisistikasının qabaqcıl ictimai-mədəni fikrin, milli oyanışın, milli dirçəlişin və milli düşüncənin formalaşmasında və inkişaf etdirilməsində xidmətləri danılmazdır. Xalqın mənəviyyatından gələn, dünyagörüşünün mahiyyətində olan hər cür mədəni müxtəlifliyə hörmətlə yanaşma kimi keyfiyyətləri ədəbi-bədii düşüncənin prinsipindən ayrılmaz şəkildə təqdim edilir. Məsələn, müharibə illərində alman faşizminə qarşı intiqama çağıran şeirlərdə, döyüşən ordu sıralarında vuruşan şair və yazıçıların məktublarında, publisistik yazılarda alman xalqını heç bir halda alman faşizmi ilə eyniləşdirmək cəhdinə rast gəlinmir. İkinci Dünya müharibəsi və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsində Azərbaycan yazıçısı mövqeyindən çıxış edirdi. Jurnalın bu dövrdə redaktoru olmuş ədəbiyyatşünas Məmməd Arif "Heyne və faşizm" məqaləsində yazır: "*Faşistlər Qermaniyada hökümət başına keçmələrini dünya mədəniyyətinə qarşı böyük və vəhşi hücumlarla qeyd etdilər"* [3, s.60]. Materialların estetik mündəricəsi humanizmə köklənməklə, "irq nəzəriyyəsi"ni insanlığa qarşı silaha çevirmiş faşizmə nifrət təlqin edir, inam aşılayır. Bunu da danmaq olmaz ki, repressiya siyasətinin acı nəticələri, ədəbiyyata, mədəniyyətə, yaradıcılıq fəaliyyətinə analoqu olmayan nəzarət mexanizmi seçim imkanları haqqında düşünməyə yer qoymamışdı; ədəbiyyat məhz rejimin tələb etdiyi mövzulara müraciət edirdi.

Növbəti illərdə də jurnalın mövqeyinin göstəricisi olan bu yanaşmanı XX əsrin sonları – XXI əsrin əvvvəllərində jurnalın səhifələrində yer alan əsərlərdə də aydın görmək olar; erməni xalqı ilə ermənilik anlayışları eyniləşdirilmir. Bu, Azərbaycan xalqının təbiətinin göstəricisidir və milli-mənəvi dəyər kontekstində təqdim edilir. Azərbaycan yazıçısı Maksud İbrahimbəyovun *"Mən fəxr edirəm ki, ölkəmin vətəndaşları hətta müharibə dövründə də amansızlaşmadılar və insana layiq işlər görməyi yadırğamadılar"* [6, s.73] fikrini milli xatakterin, düşüncə və davranışın sabit mahiyyətinin səciyyəsi kimi xatakterizə edir.

70-ci illərin sonu – 80-ci illərin əvvəllərində "Azərbaycan" jurnalının, istər bədii əsərlər, istər publisistikanın maraqlı örnəkləri ilə tarixi yaddaşın bərpa olunması, milli özünüdərkin inkişafı, milli mənlik şüurunun güclənməsi istiqamətində "Adımız, tariximiz, taleyimiz", "Ədəbi yaddaş", "Ədəbi faciələr", "Tarix: həqiqətlər, fərziyyələr", "Açılmamış səhifələr", "Ədəbi irsimizdən" və s. rubrika-

larda verilən müxtəlif materiallarda təkcə yazıçı və şairlər deyil, müxtəlif sahələrdə çalışan ziyalılar, elm və sənət xadimləri qlobal və məhəlli problemləri qabardırdılar.

Əlbəttə, jurnalın salnaməsi yalnız uğurlar salnaməsi deyil. Onun səhifələrində dövrün konyukturası da, digər mətbu nəşrlərlə müqayisədə, az olsa da, yer alıb. Hər bir halda, jurnal özü konyukturaya uymadan dövrün ədəbiyyatını və ədəbi hadisələrini, təmayüllərini olduğu kimi təcəssüm etdirib və nəticə etibarilə, siyasi-sosioloji mühitin mənzərəsini, ədəbi mühitin siyasi-ictimai koloritini verə bilməsi ilə bu gün mühüm və ciddi bədii-estetik mənbədir. Ədəbiyyatda bədii-estetik meyarların siyasi qiymətləndirmənin kölgəsində qaldığı dönəmlərdə anti-ədəbiyyatın klassika kimi təqdim olunması faktları, yazıçının partiya mənsubluğunun ədəbi istedaddan öndə durması yeni ədəbi nəsillərin formalaşması, Azərbaycan poeziyası, bədii nəsrinin təkamülünü izləməyə mane ola bilməmişdir. *"...onun cildləri, səhifələri şeirimizin, nəsrimizin, tənqid və ədəbiyyatşünaslığımızın, bədii tərcümə və publisistikamızın, bir sıra hallarda hətta humanitar elmi fikrimizin antologiyası, ensiklopediyasıdır. Bu jurnal yarandığı gündən sağlam təməl üzərində ucalıb, bütün göstərişlərə, direktivlərə baxmayaraq, siaysi-ideoloji deyil, ədəbi-bədii tribuna olub. Zamanla ayaqlaşmağa çalışsa da, heç vaxt zəmanəyə baba olmağa can atmayıb. Ədəbiyyatın yüksək vəzifə və amalını hər şeydən yüksək tutub"* [7, s.56-60.]

Azərbaycanda ədəbi tənqidin, ədəbiyyatşünaslıq elminin formalaşmasında, inkişafında rolu həm də ondan ibarətdir ki, jurnal ədəbi prosesi istiqamətləndirməklə bu elmi ədəbi prosesə daxil etmiş, eyni zamanda böyük ədəbiyyatşünaslıq məktəbinə çevrilmişdir. "Azərbaycan" jurnalında elə təkcə tənqid və ədəbiyyatşünaslıq məsələlərindən bir neçə elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyaları yazıb müdafiə etmək, cild-cild monoqrafiyalar nəşr etməyin mümkünlüyünü qeyd edən akademik İsa Həbibbəyli yazır: *"Azərbaycanda tənqid və ədəbiyyatşünaslıq elminin inkişaf etdirilməsində də "Azərbaycan" jurnalı müstəsna rol oynamışdır. Jurnal sözün həqiqi mənasında böyük ədəbiyyatşünaslıq məktəbidir... Jurnalın təşkil etdiyi ədəbi müzakirələrdə, dəyirmi stol söhbətlərində də tənqidçi və ədəbiyyatşünaslar fəal iştirak etməklə, həm də yaradıcılıq proseslərinə yaxından müdaxilə etmək missiyasını yerinə yetirmişlər..."* [5, s.14]

Ədəbi prosesdə təsdiq olunmağın yolu təkcə yazıçılar üçün deyil, ədəbiyyatşünaslar üçün də "Azərbaycan" jurnalında çap olunmaqdan keçmişdir. Bu gün də ən yeni dövrün ən yaxşı ədəbi əsərlərini ədəbi-elmi dövriyyəyə gətirməklə ədəbiyyatın ümumi mənzərəsinin yaradıcılıq prosesləri bu jurnalda əks olunur. Jurnalın həm də ən yaxşı ədəbiyyat dərsliyi adlandırılması buradan qaynaqlanır.

"*Ədəbiyyatımızın son yüzillikdəki mənzərəsi – yəni Azərbaycan bədii(və ədəbi!) dilinin bu 100 ilə sığmayacaq qədər inkişafı, zənginləşməsi və təmizlənməsi, yaxud misal üçün, nəsrdə yeni janrların yaranması, formalaşması və onların ədənbiyyatımızın milli faktoruna çevrilməsi, yaxud poeziyamızda hecanın bədii- estetik miqyasının artması və ən yüksək faizli aparıcı vəznə çevrilməsi, yaxud da ədəbi tənqidimizin formalaşması və onun ictimai fikrin zənginləşməsindəki mühüm rolu və ədəbiyyatşünaslığımızda klassikamızın tədqiqində elmi-nəzəri səviyyənin müqayisəedilməz dərəcədə artması və sağlam (obyektiv!) milli təəssübkeşliyin ifadəsi – bütün bunlar "Azərbaycan" jurnalının yaratdığı salnamənin səhifələridir... Eyni zamanda, müstəqilliyimizin ərəfəsində və sonrakı illərdə də –1980-ci illərin sonu, 90-ların əvvəli – "Azərbaycan" jurnalı ağır, hətta məşəqqətli günlər keçirib və hər vasitə ilə ağır durumdan çıxmaq üçün yollar axtarıb və maliyyə qıtlığına, nəşrin aybaay ardıcıllığının pozulmasına, həcminin azalmasına – bütün bu çətinliklərə baxmayaraq, "Azərbaycan" öz salnaməsini yazmağa davam edib, öz səhifələrində 30 il Qarabağ əzab-əziyyətini də çəkib və Zəfərlə bitən 44 günlük savaşdan sonra salnamənin tarixi Qələbə səhifəsini yazıb"* [4, s.7-9].

"Azərbaycan" jurnalının səhifələrində diqqətçəkən məsələlərdən biri də klassik ədəbi irsin dəyər səviyyəsində öyrənilməsidir. Ədəbi irsə qayğı, klassiklərin, klassik mətnlərin öyrənilməsi, yeni mənəvi dəyərlər sisteminə qaytarılması jurnalın ədəbi siyasətinin əsas istiqamətlərindən biridir.

Jurnalın AMEA-nın Əlyazmalar İnstitutu ilə birgə layihəsi, Ədəbiyyat İnstitutu ilə sıx əməkdaşlığı da, görünür, elə bu məqsədlədir. Klassiklərin təbliğ etdikləri ideyaların və etik dəyərlərin aktuallığını qoruyub saxlaması – ədəbiyyatşünaslıq və fəlsəfə də klassik irsin əbədiyaşar sirrini belə izah edir.

## Nəticə / *Conclusion*

XX əsr Azərbaycan ədəbiyyatının və ədəbi nəsillərinin, ədəbi düşüncəsinin birəsrlik yolu "Azərbaycan" jurnalı ilə bağlıdır. Azərbaycan ədəbiyyatının tarixini öyrənmək və müasir ədəbi prosesi qiymətləndirmək üçün mühüm ədəbi mənbələrdən biri olan "Azərbaycan" jurnalı yarandığı ilk illərdən Azərbaycan bədii fikrinin ən yaxşı nümunələrinin – klassik və müasir ədəbiyyatın, folklor və tərcümə nümunələrini oxuculara çatdırmaq kimi mühüm bir vəzifəni yerinə yetirir. Artıq tarixə çevrilmiş sovet dövrünün ədəbi problemlərini dolğunluğu ilə əks etdirən jurnal bu gün də ədəbi prosesin aynası kimi çıxış edir.

Dövrlərin mənəvi təcrübəsini konkret tarixi materialın kontekstində təqdim edilən ümumbəşəri problemlərin həllinə yönəltmək, insanı sabit mənəvi və sosial dəyərlər sınağında dərk etmək qüdrəti – ədəbi irsin məktəb kimi öyrənilməsini həmişə aktual edən məhz budur.

"Azərbaycan" jurnalında işin başlıca səciyyəsi peşəkar prinsiplərin fəaliyyət tərzi kimi qavranılmasıdır. Məhz bu peşəkarlıq səviyyəsi və səciyyəsi dəb və dəyər haçalanmasında uğurlu balanslaşdırmanı təmin edir. Bu gün mədəniyyətin, sənətin taleyinə münasibətdə kapitalizmin mübadilə təbiətini yox, milli-mənəvi məzmundan güc alan intonasiyanı qabartmaq və onu daha geniş əraziyə ötürə bilən kommunikasiya nümunəsi olmaq! Yeni dünya nizamında milli özünüifadə və özünütəsdiqin optimal variantını bunda görən jurnal bu mövqeyində də yüksək demokratik düşüncəsinə sadiqdir: rəqabət yox, sağlam, xoş niyyətli tərəfdaşlıq və əməkdaşlıq. "Azərbaycan" jurnalının müəllif və mətn siyasəti yalnız və yalnız milli və dövlətçilik maraqlarına, yüksək ədəbi-estetik meyarlara söykənir.

Ədəbiyyatın milli-mənəvi dəyər planının dəyişməsi onun estetik obrazının da dəyişməsini şərtləndirir. Tarixi təcrübə isə, dönə-dönə sübut etmişdir ki, güclü etnik-mədəni əsaslar üzərində durmayan ədəbiyyatın böyük ədəbiyyat olmağı iddia etməsinə dəyməz.

Jurnal çoxdandır ki, təkcə ədəbiyyatımızın tarixini öyrənmək və müasir ədəbi prosesi qiymətləndirmək üçün mühüm mənbə, Azərbaycan bədii fikrinin ən yaxşı nümunələrini – klassik və müasir ədəbiyyatını, folklor və tərcümə nümunələrini oxuculara çatdıran bir dərgi, dəyər daşıyıcı deyil, həm də mədəni, ictimai-siyasi hadisədir. "Azərbaycan" jurnalı bir Publisistika faktı, bir Janr kimi, mədəni-mənəvi sərvətimizin elə bir nümunəsinə çevrilmişdir ki, onun qiymətləndirilməsi, dəyərləndirilməsinin özü bu gün dəyərə münasibət ölçüsünə, göstəricinə ekvivalentdir. Cəmiyyətin humanist ovqatda inkişafına can atmaq, cəmiyyət üzvlərinin mənəvi gücünün artmasını, ümumi ahəngi, harmoniyanı təmin etməyə öz töhfəsini vermək düşüncəsi aşılamaq! Sağlam düşüncə "Azərbaycan"ın bu məramını dəyərləndirməkdə tərəddüd etmir.

## Ədəbiyyat / *References*

1. Ağabalayeva, S. "Vaxtın nə günahı..." – Bakı: Səda Nəşriyyatı, 2011. – 356 s.
2. Anar. "Ədəbiyyatımızın güzgüsü". "Azərbaycan" jurnalı, 2018.
3. Arif, M. Heyne və faşizm. "Vətən uğrunda" jurnalı, 1942, №1.
4. Elçin.100 ilin mühüm ədəbi salnaməsi. "Azərbaycan" jurnalı, 2023, № 1.
5. Həbibbəyli, İ. Davamlı ədəbi ənənələrin və yeniləşmələrin jurnalı. "Azərbaycan" jurnalı, 2013, № 1.
6. İbrahimbəyov, M. Fraqmentlər" (üç dildə) – Bakı: Səda, 2008. – 267 s.

7. Quliyev V. Azərbaycan qədər yaşayacaq “Azərbaycan”: “Azərbaycan” – 95. Azərbaycan, 2018, № 1.
8. Quliyev, M. Bir neçə söz // “Maarif və mədəniyyət” jurnalı, 1923, № 1.

## Журнал «Азербайджан»: масштаб национально-литературной мысли

**Судабе Агабалаева**
Бакинский славянский университет
E-mail: sudabe334@mail.ru

**Резюме.** Профильные образцы СМИ, позволяющие проследить динамику развития литературы в Азербайджане, появились в основном с начала XX века. Были опубликоваы некоторые литературно-художественные образцы, многими типографиями выполнялись переводы из восточной и западной литературы с конца XIX века, что оказало серьезное влияние на развитие просветительской работы.
Создатели журналов «Молла Насреддин» и «Фуюзат», издававшихся в начале XX века, представляли в этих изданиях свои публицистические статьи, образцы художественного творчества и переводческой деятельности, тем самым сформировав идею создания журнала, который в дальнейшем более непрерывно освещал бы развитие литературы. Не следует забывать, что основным фактором, определяющим эту идею, является общественно-политико-культурная среда.
В статье прослеживается история и этапы развития журнала «Азербайджан» на примерах, раскрывающих уровень ценности литературно-художественного наследия. Изучается место в современном литературном процессе, функциональность и творческие аспекты журнала. Анализируются основные критерии литературной политики в иной системе общественных отношений, в условиях изменения названия и языка, подверженных давлению идеологического штампа, и основные факторы этой политики обобщаются методом сравнения. Поскольку тексты журнала не являются системой, в журнале ссылаются на иные методологические, научно-теоретические основы. Рассмотрение журнала как этнокультурной ценностной системы требует обращения к определенным принципам общей теории систем.
**Ключевые слова**: пресса, литература, культура, журнал, «Азербайджан», цензура, редактор